## Olimpiya zirvəsinə aparan yol

Ən möhtəşəm idman tədbiri sayılan Olimpiya oyunları milliyyətindən, irqindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, milyonlarla insanı bir araya gətirən, onlar arasında sivil dialoq yaradan unikal mədəniyyət hadisəsidir. Olimpiya oyunlarında iştirak edən hər bir dövlət, ilk növbədə, dünya miqyasında özünütəsdiq imkanı qazanır.

*Atlantada uğurlu debüt*

Azərbaycan Milli Olimpiya Komitəsi 1993-cü ildə Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanındı. Beləliklə, Azərbaycan müstəqil dövlət kimi ilk dəfə 1996-cı ildə Atlanta Olimpiya Oyunlarında təmsil olunmaq imkanı əldə etdi. İdmançılarımız ilk dəfə qatıldıqları Atlanta olimpiya yarışlarında ciddi əzmkarlıq göstərsələr də, Vətənə qızıl medal gətirə bilmədilər. Yalnız sərbəst güləşimiz Namiq Abdullayev yarışlarda yüksək ustalıq nümayiş etdirərək gümüş medal qazana bildi.

Atlanta Olimpiya Oyunlarından bir il sonra - 1997 ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin sədri seçilməsi isə ölkə idmanının inkişafında keyfiyyətcə yeni mərhələnin başlancığına çevrildi. İdman sahəsində, yüksək mütəşəkkillik təmin edildi, idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlər planı işlənib hazırlandı.

*Sidney - 2 qızıl, 1 bürünc*

MOK sədri İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər qısa müddətdə müsbət nəticələrini verməyə başladı: ölkə idmançıları 2000-ci ildə ikinci dəfə iştirak etdikləri Sidney (Avstraliya) olimpiya oyunlarında  iki qızıl və bir bürüc medala imza atdılar.

Azərbaycanın bu olimpiya oyunlarında 31 idmançısı iştirak edirdi. 2000-ci il  sentyabrın 1-i Azərbaycan bədən tərbiyəsi və idman hərəkatı tarixinə qızıl hərflərlə yazıldı. Həmin gün müstəqil Azərbaycan dövləti olimpiya oyunlarında özünün ilk qızıl medalını qazandı. Atəş xəttinə çıxan Zemfira Meftahəddinova stend atıcılığı idman növü üzrə uğurlu nəticə göstərərək yeni olimpiya rekordu müəyyən etdi. Atlanta olimpiya oyunlarında gümüş medal qazanmış Namiq Abdullayev isə bu dəfə qızıl medala yiyələnərək ölkəmizin idman şərəfini əzmlə qorudu. Bokçumuz Vüqar Ələkbərov (75 kq) olimpiadanın bürünc medalı ilə kifayətlənməli oldu.

XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan 199 ölkə arasında 34-cü yeri tutmaqla, idman ölkəsinə çevrildiyini bir daha nümayiş etdirdi. Respublika idmançılarının Sidneydəki uğurları beynəlxalq arenada da böyük maraqla qarşılanmışdı. Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roq qurumun 2000-ci il noyabrın 16-dan 19-a kimi Polşanın paytaxtı Varşava şəhərində keçirilən XXIX Baş Assambleyasında olimpiya hərəkatında fəal mövqe tutan ölkələr sırasında Azərbaycanın da adını çəkmişdi.

*Afinada medal sayı artdı*

MOK prezidenti İlham Əliyevin 2003-cü ildə xalqın siyasi idarəsi ilə prezident seçilməsindən sonra ölkədə idman və olimpiya hərəkatında keyfiyyətcə yeni mərhələ başlandı. 2004-cü ildə ölkədə bədən tərbiyəsi və idmanın sistemli inkişafını, bu sahənin hüquqi, iqtisadi, sosial bazasının möhkəmləndirilməsini təmin edəcək «Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafı üzrə Dövlət Proqramı» təsdiqləndi.

Ölkə idmançıları 2004-cü ildə Yunanıstanın paytaxtı Afinada keçirilən  XXVIII Yay Olimpiya oyunlarında daha parlaq nəticələrə imza atdılar. Bu olimpiya oyunlarına qədər dünya və Avropa çempionatlarında uğur qazanan idmançılarımız «Afina-2004»ə 12 idman növü üzrə 38 lisenziya əldə etmişdilər. İlk dəfə olaraq Azərbaycanın bədii gimnastları və taekvondoçuları da XXVIII Olimpiya Oyunlarında respublikamızın idman şərəfini qorumaq imkanı əldə etmişdilər.

Afinada Azərbaycana ilk medalı (bürünc) İradə Aşumova kiçik çaplı tapançadan 25 metr məsafəyə atəş açmaq üzrə yarışlarda qazandırdı. Sonrakı günlərdə stend atıcısı Zemfira Meftahəddinova, boksçularımız Ağası Məmmədov və Fuad Aslanov da bürünc medal qazandılar. Klassik güləşçimiz Fərid Mansurov isə 2004-cü il avqustun 22-də tarixi qələbəyə imza ataraq qızıl medalın sahibi oldu.

Ümumilikdə, idmançılarımız XXVIII Yay Olimpiya Oyunlarında 4 bürünc və 1 qızıl medal qazandılar. Azərbaycan medal qazanmış 75 ölkə arasında 50-ci, medalların sayına görə isə 37-ci yeri tutdu.

*Pekin - irəliyə doğru*
*daha bir addım*

Azərbaycan idmançıları 2008-ci ildə Pekində keçirilmiş XXIX Yay Olimpiya oyunlarında da inamla çıxış etdilər. 2008-ci il avqustun 11-i Azərbaycanın idman tarixində daha bir əlamətdar gün oldu - cüdoçu Elnur Məmmədli Pekin olimpiadasında Azərbaycana ilk qızıl medalı qazandırdı!

Yunan-Roma güləşində yarışan Rövşən Bayramov (55 kiloqram) və Vitali Rəhimov (60 kiloqram) isə komandamıza iki gümüş medal qazandırdılar. Pekin olimpiadasının altıncı günündə azərbaycanlı cüdoçu Mövlud Mirəliyev respublikamıza bürünc medal qazandırdı.

Pekin olimpiadasının 8-ci günü, avqustun 16-da Azərbaycanın idman azarkeşləri növbəti medalı güləşçi Mariya Stadnikdən (48 kiloqram) gözləyirdilər və onların bu ümidi doğruldu.

Azərbaycan idmançıları Pekində 7 medal (1 qızıl, 2 gümüş və 4 bürünc) qazanaraq komanda hesabında 39-cu yeri tutdular. Bir daha xatırladaq ki, ölkəmiz 1996-cı il Atlanta olimpiadasında 1 gümüş medalla 61-ci, Sidney-2002-də 2 qızıl və 1 bürünc medalla 34-cü, 2004-cü ildə keçirilmiş Afina oyunlarında 1 qızıl və 4 bürünc medalla 50-ci yerdə qərarlaşmışdı.

Pekin olimpiadasında iştirak etmiş 204 ölkədən yalnız 87-si medal qazana bilmişdi. Medalların sayına görə Azərbaycan bu ölkələr arasında 27-ci yeri tutaraq, Çexiya, Slovakiya, Danimarka, Argentina, İsveçrə kimi ölkələri geridə qoymuşdu.

*London - qalibiyyətimizin təntənəsi!*

Prezident İlham Əliyev Pekin olimpiadasından dərhal sonra 2012-ci il London yay olimpiya oyunlarına hazırlığı qarşıda ciddi vəzifələrdən biri kimi müəyyənləşdirmişdi. Dövlət başçısının 2010-cu il 22 iyun tarixli «XXX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında» sərəncamı bu baxımdan xüsusi əhəmiyyətə malik idi. Bu sərəncamın imzalanması Azərbaycan milli olimpiya komandasının 2012-ci ildə London şəhərində keçiriləcək XXX Yay Olimpiya Oyunlarına mütəşəkkil hazırlanması, lisenziyaların qazanılması və idmançıların London olimpiadasında iştirakının lazımi səviyyədə təmini məqsədinə xidmət edirdi.

Son günlərdə bütün dünyanın diqqət mərkəzində olan XXX yay olimpiya oyunları Azərbaycan üçün kifayət qədər mühüm göstəricilərlə yadda qaldı. Respublikamız bu olimpiadada 2 qızıl, 2 gümüş, 6 bürünc medalla 204 ölkə arasında 30-cu yerdə oldu.

Ölkə idmançıları son olimpiadada da qələbə əzmi nümayiş etdirərək ölkəmizin idman şərəfini layiqincə qorumağa çalışdılar. London olimpiya oyunlarında güləşçilərimizin göstərdikləri əzmkarlığı xüsusi qeyd etmək lazımdır. Bu möhtəşəm idman tədbirində 2 qızıl, 2 gümüş, 3 bürünc medalla dönən güləşçilərimiz respublikamızda bu idman növü üzrə tarixi ənənələri olan sanballı məktəbin olduğunu nümayiş etdirdilər.

Olimpiadanın ilk günlərində ağır atletimiz Valentin Xristov bürünc medala imza atdı. Sonrakı günlərdə isə güləş üzrə yığma komandamızın üzvləri yaranmış boşluğu aradan qaldıraraq bir-birinin ardınca

*7 medal qazandılar.*

Azərbaycan idmançıları XXX London Yay Olimpiya Oyunlarında medal sayına görə 25-ci, xal hesabına görə 27-ci, qızıl əyarına görə isə medal qazanan 85 ölkə arasında 30-cu yeri tutdular. Şübhəsiz, olimpiadada qazanılmış uğurlar ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısının, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən davam etdirilən düşünülmüş və ardıcıl tədbirlərin nəticəsidir.

MOK rəhbəri, Prezident İlham Əliyevin ilk gündən Londonda idmançılarımıza mənəvi dəstək olması, qalib idmançılarımızı yüksək səmimiyyətlə, diqqətlə təbrik etməsi deməyə əsas verir ki, dövlət başçısı Azərbaycanın idmanının gələcəyi üçün davamlı inkişaf hədəfləri müəyyənləşdirib.

Dövlət başçısının yüksək diqqət və qayğısı isə idmançılarımızı yeni-yeni qələbələrə ruhlandırır!

Samir MUSTAFAYEV